Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

Teymur Elçin

# BALACA AYTƏN



Teymur Elçin

# Balaca Aytən



Gənclik

Bakı –1983

# Balaca Aytən

—Tanış olun bu qızla:
Dörd yaşı var Aytənin.
Kiçik dostumdur mənim.
—Mənim də!
— Mənim!
— Mənim!
— Mənim də!
Bildim, mənim dostlarım
Dostudur Aytənin də.
Mehriban qızdır Aytən,
Baxıb, görür hər şeyi
Qara, zeytun gözləri.
Axtarıb, tapır dili
Şirin-şəkər sözləri.
Kim köməyə çağırsa,
Eşidir qulaqları,
Tez aparır Aytəni
Oraya ayaqları.

# Muratino

Tək deyil Buratino,
Var Bakıda qardaşı.
Adı da Muratino.
Kimdən eşitmişəm mən?
Qulaq asın, danışım,
Təsdiq eləsin Aytən...
Bir gün xəbər verdilər:
—Aytənə qaqaş gəlib!
Bacıya qardaş gəlib!
Sevindi İslam baba,
Çağırdı:—Murad! Murad!
Oldu uşağın bu ad.
Bir əmi də dedi ki,
Böyüyəndə bu uşaq
Böyük rəssam olacaq.
Bapbalaca Muradı
Aytən lap tez tanıdı.
Xəbər verdi hamıya:
— Murad yox, Muratino,
Təzə bir Buratino!



# İstəyirəm...

Söz düşəndə
Babasından, nənəsindən
Deyir Aytən:
— Hamıdan çox istəyirəm
Onları mən

– Göstər görüm hara qədər?
– Yerdən ulduzlara qədər...






# Kloun

– Kim görübdür
          qız-kloun?
Deyin, varmı
          qız-kloun?
Heç olarmı
          qız-kloun?
– İstəyəndə
          olar! Olar!



Tanıyıram,
Birisi var—
O da Aytən.
İki ildir
Tez-tez deyir:
— Mən kloun olacağam!
— Niyə, Aytən?



— Mən güldürmək istəyirəm
Adamları.
İstəyirəm, heç kəs, heç vaxt
Ağlamasın.

İstəyirəm, mənə baxıb
Gülsün onlar.
– Kim görübdür,
Harda belə kloun var?



# Bir tikə çörək

Gedir səhər-səhər
bağçaya Aytən,
Nənəsinin bərk-bərk
tutub əlindən.
Gah atılıb-düşür,
gah əylənir o,
Dəcəl uşaqlardan
gileylənir o.
Qız birdən dayanır,
donur yerində,
Qəm-qüssə görünür
şən gözlərində.
– Nənə, bax, çörəyi
atıblar yerə!..
Az qala yerindən
çıxır ürəyi.
Əyilib götürür,
öpür çörəyi,
Qoyur pəncərənin
önünə Aytən.
—Ac quşlar, pişiklər
tapıb yesinlər,
Eləmi, nənə?!
— Mən də istəyirəm,
"sağ ol" desinlər,
Aytənim, sənə!



Bərpanəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 2 ç.v.
Sifariş 9
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS –A"